# Tarixdə iz buraxanlar: Abdulla Şaiq Talıbzadə

**Azərbaycanın klassik şairi, yazıçı-publisist Abdulla Şaiq Talıbzadə 24 fevral 1881-ci ildə Tiflisdə ruhani ailəsində anadan olub. Atası Mustafa bəy, anası Mehri xanımdır. İlk təhsilini müsəlman məktəbində alan Abdulla 1893-cü ildə ailə vəziyyəti ilə əlaqədar olaraq Xorasana köçür, dövrünün mütərəqqi ziyalısı Yusif Ziyanın məktəbində yeddi il təhsilini davam etdirir, tarix, məntiq, psixologiya elmlərini, Şərq, Azərbaycan və rus ədəbiyyatını öyrənir. 1900-cu ildə Tiflisə qayıdır.**



Abdulla Şaiq Talıbzadə bir müddət Tiflisdə qaldıqdan sonra 1901-ci ildə Bakıya gəlir. Həmin il aprel ayının 22-də oğlan gimnaziyasında xüsusi imtahan komissiyasında imtahan verərək Ana dili müəllimi adını alır, rus-tatar məktəblərində ehtiyat müəllimi kimi pedaqoji fəaliyyətə başlayır. Bundan sonra Abdulla Şaiq ömrünün 34 ilini Azərbaycan maarifinin inkişafına həsr edir, xalqın, vətənin gələcəyi naminə var gücü ilə çalışır, həm sənət aləmində, həm də maarif işlərində ən qabaqcıl şəxsiyyət kimi ziyalılarla ön cərgədə gedir. O, həm də qadınlar üçün jurnal çıxarmaq, uşaq bağçası açmaq, kitabxana yaratmaq, kasıb uşaqları pulsuz oxutmaq kimi xeyirxah təşəbbüslər irəli sürür. Bu zamanlar Abdulla Şaiq milli qaydalara bağlı, milli intibah, milli dirçəliş tərəfdarı olan maarifçi pedaqoq, romantik şair kimi formalaşır.

1906-cı ilin avqust ayında Bakıda keçirilən I Müəllimlər Qurultayının təşkilində Abdulla Şaiqin böyük xidmətləri olub. O, qurultayda ana dilinin və ədəbiyyatın tədrisinə dair təşəbbüslə çıxış edib. Qurultay H.Zərdabi, F.Köçərli, M.Mahmudbəyov, S.Sani, A.Şaiq və başqalarından ibarət xüsusi komissiya seçib və Azərbaycan dilində müvafiq proqram hazırlamağı onlara tapşırıb. I Müəllimlər Qurultayından heç bir il keçmədən neçə-neçə yeni dərsliklər yaranıb. "Əlifba", "Uşaq çeşməyi", "İkinci il", "Gülzar" və s. bu kimi dərsliklərdə Abdulla Şaiqin əsərləri və dünya ədəbiyyatından nümunələr çap olunub. Onun "Uşaq çeşməyi" kitabı kiçik yaşlı uşaqların bilik səviyyəsinə uyğun hazırlanıb. Bundan sonra o, müxtəlif illərdə bir-birinin ardınca "Milli qiraət", "Müntəxəbat", "Türk çələngi", "Ədəbiyyat", "Türk ədəbiyyatı", "Gülşəni ədəbiyyat" adlı dərsliklər və proqramlar hazırlayıb. Bu dərsliklərdə Azərbaycan klassiklərinin həyat və yaradıcılığı haqqında məlumatlar və əsərlərindən parçalar verilib. Abdulla Şaiq həm də qadınlar üçün jurnal çıxarmaq, uşaq bağçası açmaq, kitabxana yaratmaq, kasıb uşaqları pulsuz oxutmaq kimi xeyirxah təşəbbüslər irəli sürüb, eyni zamanda Azərbaycan ədəbiyyatını tədqiq və təbliğ edib, Xaqani, Nizami, Nəsimi, Füzuli, Xətai, Vaqif, Vidadi, Zakir, M.F.Axundov, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, M.Hadi, H.Cavid kimi şair-yazıçıların yaradıcılığını araşdırılıb.

Abdulla Şaiq yaradıcılığına tərcümə və qəzəllə başlasa da, onun ilk mətbu əsəri "Laylay" adlı uşaq şeiri olub. O, 1906-cı ildən başlayaraq silsilə şeirləri ilə Azərbaycan milli uşaq poeziyasının incilərini yaradıb. Bir sıra şeirləri "Dəbistan" və "Məktəb" uşaq-gənclər toplularında işıq üzü görüb. Bu illərdə "Nicat" cəmiyyətinin idarə heyətinə üzv seçilib, ədəbi-bədii problemlərlə, maarif və məktəb işləri ilə məşğul olub.

Xalq ədəbiyyatını toplayıb araşdıran Abdulla Şaiq bu örnəklər əsasında "Tıqtıq xanım", "Yaxşı arxa" kimi mənzum nağıllar da yazıb. Onun "Ədhəm", "Tapdıq də-də", "Qoçpolad" kimi poemalarında milli folklorun təsiri görünür. Abdulla Şaiq həm də 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatrının əsasını qoyub. Onun "Hürriyyət pərisinə", "Niyə uçdu", "Bir quş", "XX əsrə xitab", "Şikayətlər", "Zamanın inqilabçılarına" kimi şeirləri inqilab ruhlu şeirləri sayılır.

Nəsr yaradıcılığına 1905-ci ildə romantik "İki müztərib və ya əzab və vicdan" yarımçıq romanı ilə başlayan ədib "Məktub yetişmədi", "Köç", "Daşqın", "İntiharmı", "Əsrimizin qəhrəmanları" kimi bir çox hekayə, povest və romanlar yazıb. "Köç" və "Məktub yetişmədi" hekayələri və "Əsrimizin qəhrəmanları" romanı ilk milli nəsr nümunələri kimi dəyərləndirilir. "Hamımız bir günəşin zərrəsiyiq" əsəri şairin o dövrkü dünyagörüşünü, şər qüvvələrin xalqlar arasında nifaq salmasını, savaş törətdiyini, bəşərin sabahını, insanların taleyini göstərən romantik şeirlərindəndir.

Abdulla Şaiq müstəqil Azərbaycan ideyasında M.Ə.Rəsulzadə, A.Ağaoğlu, Ə.Topçubaşov, Ə.Hüseynzadə, Y.Nəsibbəyli kimi öndər ziyalılarla həmfikir olub. O, 1918-ci il mayın 28-də yaranan Azərbaycan Xalq Cumhuriyyətini sevinclə qarşılayıb. M.Ə.Rəsulzadə bu dövrdə "milli istiqlalın sevincini ilk duyanlar" sırasında Abdulla Şaiqin də adını çəkib. Rəsmi dövlət qəzeti olan "Azərbaycan"ın səhifələrində məktəblər və milliləşdirmə məsələsi haqqında ilk çıxış edən, onu təbliğ edən və həyata keçirənlərdən biri də Abdulla Şaiq idi. O, 1919-cu ildə Bakı Dövlət Universitetinin yaranması ilə bağlı "Tələbə həyatı" pyesini yazıb, yarımçıq qalan "Əsrimizin qəhrəmanları" romanını tamamlayıb. Bu əsərlərdə müəllif vətən, millət, müstəqillik arzularını dilə gətirib, milli dövlətçiliyimiz üçün yeni milli kadrların hazırlanması məsələsini önə çəkib. Onun bu illərdə qələmə aldığı "Yeni ay doğarkən", "Arazdan Turana" kimi şeirləri ədəbi mühitdə dəyərləndirilən poeziya nümunələrindəndir. Onun "Vətənin yanıq səsi" şeirində ulu oğuzların hünəri, Altay türkləri, Elxan və Altun ordusu nümunə göstərilib.

Şair "İki mücahid" və yaxud "Atı yaralı əsgər" şeirlərində cahan savaşının yaraları, erməni daşnakların Azərbaycan torpaqlarındakı vəhşiliyi, Qarabağdakı fitnə-fəsadları ön plana çəkib. Ədib ADR dövründə maarif və məktəb yönündəki işini daha da canlandırıb, bir neçə məktəbi milliləşdirib, rus məktəblərində Azərbaycan türkü sinifləri yaradıb. Dövlətin yaratdığı proqram və dərsliklər hazırlayan komissiyanın üzvü kimi çalışıb.

1920-ci il aprelin 28-də rus ordusu Azərbaycana soxulur, kommunistlər hakimiyyəti ələ alır. Buna baxmayaraq, Abdulla Şaiq xalqın gələcəyi naminə öz ədəbi-pedaqoji fəaliyyətini davam etdirir. O, pedaqoji kurslarda, texnikumlarda və başqa məktəblərdə dərs deyir, mədəni-maarif işlərinə yardım edir, bədii yaradıcılıqla məşğul olur. 1923-cü ildə onun ədəbi-pedaqoji fəaliyyətinin 20 illiyi təntənə ilə qeyd edilir. Çalışdığı gimnaziya "Şaiq nümunə məktəbi" adlandırılır. Bu məktəbdə bütün dərslər Azərbaycan Türk dilində aparılır. Təzə açılan siniflərdə əsas müəllimlər A.Şaiq, Q.Rəşad, C.Cəbrailbəyli, S.Quliyev və başqa ziyalılar olur. Fəqət yeni yaradılan məktəb bir çox problemlərlə üzləşir. Nə dərslik, nə də proqram tapılır, müəllim kadrları çatışmır. Seçilən heyət Abdulla Şaiqin rəhbərliyi ilə şagirdlər üçün proqram və dərslik hazırlamağa başlayır. "Şaiq Nümunə məktəbi"nin məzunu, hazırda EA-nın müxbir üzvü Məhəmmədəmin Salehli deyir ki, bir çox fənlərdən dərsləri onlara Türkiyədən gəlmiş müəllimlər deyirdi. Qocaman pedaqoq və tədqiqatçı Lətif Hüseynzadə gənclərdə milli şüurun formalaşmasında, milli mədəniyyətin, tarixin öyrənilməsində o vaxt fəaliyyət göstərən məktəbin böyük rol oynadığını vurğulayaraq yazır ki, məktəbdə çatışmayan dərslikləri Türkiyədən gətirirdilər. Bütün bu çətinliklərə baxmayaraq, Abdulla Şaiqin rəhbərliyi, gənc, həvəskar müəllimlərin səyi və çalışqanlığı sayəsində milli siniflərdə dərs prosesi tərəqqi tapır. Sovet hakimiyyətinin ilk illərində məktəb iki yerə ayrılır: aşağı şöbələr və siniflər birinci dərəcəli doqquzuncu məktəb, üçüncü sinifdən etibarən isə - ikinci dərəcəli on ikinci məktəb adlandırılır. Akademik M.Salehli deyir ki, məktəbin direktoru Qafur Kantemir idi. Abdulla Şaiq ədəbiyyatdan dərs deyirdi: "O, dərin biliyə malik, öz peşəsinin vurğunu olan bir şəxs idi. Uşaqlara böyük qayğı ilə yanaşır, onlarla davranışda çox nəzakətli olardı. Biz şagirdlər ona ehtiramla yanaşır, hörmət əlaməti olaraq ona "Mirzə" deyirdik".

1923-cü ildə "Nümunə məktəbi"nin ilk buraxılışı olur. Həmin buraxılış gecəsində tələbə və müəllimlərin arzusunu nəzərə alan Maarif Komissarlığı və Baş Tərbiyə İctimaiyyə Dairəsi bir çox dolanbaclı yollardan keçib fəaliyyətini müvəffəqiyyətlə davam etdirən məktəbi "Şaiq Nümunə məktəbi" adlandırmağı qərara alır. 1918-ci ildə yaradılan məktəb 10 il fəaliyyət göstərib. Bu müddət ərzində məktəbdə sivilizasiya doğru inkişaf perspektivləri, əsrin əvvəllərində Azərbaycanın dirçəldilmə imkanları, milli şüurun sürətlə oyanma prosesi nəzərə alınaraq müstəqil və real milli təhsil siyasəti həyata keçirilib.

Bu işlər ərzində təlim-tərbiyə işləri ilə yanaşı bədii yaradıcılıqla da məşğul olan Abdulla Şaiqin "Vəzifə", "Özü bilsin, mənə nə?", "Anabacı", "Əsəbi adam" kimi silsilə hekayələri, "Araz" inqilabi-tarixi mövzulu romanı, elm, maarif və mədəniyyət haqqında bir sıra məqalələri ədəbi mühitdə maraqla qarşılanır. O, həm də "Tənqid-ü-Təbliğ" teatrı üçün əsərlər yazır.

Azərbaycan Gənc Tamaşaçılar Teatrının, Uşaq və Gənclər nəşriyyatının işi birbaşa Abdulla Şaiqin adı ilə bağlıdır. Uzun müddət bu teatrda çalışan ədib "Xasay", "Eloğlu", "Vətən", "Fitnə", "Qaraca qız" kimi müxtəlif pyeslər yazıb. "Fitnə" və "Nüşabə" əsərləri Nizami süjetləri əsasında yaranan maraqlı sənət nümunələridir.

Ədib bu illərdə də uşaqlar üçün gözəl əsərlər yazır, başqa sənət dostlarını da bu işə cəlb edir. Onun "May nəğməsi", "Top oyunu", "Bənövşə", "Qərənfil", "Bülbül" kimi uşaq şeirləri, nağıl və poemaları bu gün də öz dəyərini saxlayır. M.Seyidzadə, M.Dilbazi, M.Rzaquluzadə, Z.Cabbarzadə və başqa müəlliflər uşaqlar üçün əsər yazmağı ondan öyrənir.

Şairin Şərq ədəbiyyatı məsələləri, sufizm, təsəvvüf, hürufilik, eləcə də müxtəlif ədəbi cərəyan və metod haqqındakı araşdırma və axtarışları da maraqlıdır. Milli folklorumuzu ilk dəfə toplayıb öyrənənlərdən biri də elə Abdulla Şaiqdir. Onun çağdaş həyata, elm və dil məsələlərinə aid yazıları xüsusi maraq doğurur.

Əsl beynəlmiləlçi və hümanist bir sənətçi olan, həmişə "Hamımız bir günəşin zərrəsiyik" deyən Abdulla Şaiq bütün əsərlərində bəşəri problemlərə toxunur, xalqları dostluğa, əmin-amanlığa çağırır. O, türk, rus, fars, tatar, özbək, gürcü, tacik və başqa millətlərin ziyalıları ilə dostluq edir, dünya xalqları ədəbiyyatlarının incilərini, Firdövsinin "Şahnamə"sindən bir parça, Şekspirin "Maqbet," Puşkin, Lermontov, Kirov, Qorki, Nekrasov və başqa yazıçıların əsərlərini dilimizə çevirir.

Abdulla Şaiqin 20-30-cu illərdə dilimizin fonetika, morfologiya, sintaksis və üslubiyyət məsələlərinə dair yazdığı elmi məqalə və əsərlərin bir çoxu indi də öz əhəmiyyətini saxlayır. O, elmi-pedaqoji fəaliyyəti ilə ədəbi yaradıcılığını paralel inkişaf etdirib. Əslində bu iki sahə onun fəaliyyətini tamamlayır.

Elmə, maarifə çağırış, gənc nəslin taleyi, tərbiyəsi, xalqın, vətənin gələcəyi kimi məsələlər onun bədii əsərlərinin əsas mövzusu olub. Müxtəlif illərdə yazdığı şeirlər, hekayələr, povestlər, romanlar, dram əsərləri Şaiq cəsarətinin, Şaiq dünyagörüşündəki qabaqcıl meyllərin nümayişidir. Ədəbiyyat sahəsindəki fəaliyyətinə görə Abdulla Şaiqə "Əməkdar incəsənət xadimi" adı verilib.

Abdulla Şaiq Talıbzadə 24 iyul 1959-cu ildə Bakıda vəfat edib. Bu tarixi şəxsiyyət Fəxri xiyabanda dəfn olunub. 1990-cı ildən Bakıda fəaliyyət göstərən Abdulla Şaiqin ev-muzeyi onun həyat və bədii yaradıçılığını, bütün ömrü boyu apardığı pedaqoji fəaliyyətii, onunla ünsiyyətdə olan yazıçı və ziyalıların fəaliyyətini işıqlandıran bir mədəniyyət ocağıdır.

Allah rəhmət eləsin.

***Fazil QARAOĞLU***
***professor***